Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin "14" noyabr 2022-ci il tarixli F-31-KOB nömrəli əmri ilə təsdiq edilmişdir.

"Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi işlərinin təşkilinə dair"

Metodiki Göstəriş

Bakı-2022

MÜNDƏRİCAT

- Giriş.....3
- Əsas anlayışlar.....4
- Müsabiqələrin təşkili.....5
- Müsabiqə elanı.....5
- Sənədlərin qəbulu.....5
- Müsabiqə prosesi.....6
- Müsabiqəyə təqdim edilmiş müraciətlərin ekspert komissiyasına təqdim edilməsi.....6
- Ekspert komissiyası tərəfindən qiymətləndirmə prosesi.....7
- Ekspert komissiyasının üzvü tərəfindən layihənin qiymətləndirməsinin hesablanma forması.....7
- Meyarlar üzrə göstəricilərin və şərhlərin ümumiləşdirilməsi.....9
- Agentlik tərəfindən ekspertizanın ikinci mərhələsinin həyata keçirilməsi.....9
- Maliyyələşdirilməsi ilə əlaqədar qərar qəbul edilmiş layihələrin açıqlanması.....10
- Layihələrin maliyyələşdirilməsi və monitorinqi.....11
- 1 nömrəli əlavə.....14
- 2 nömrəli əlavə.....15
- 3 nömrəli əlavə.....16

Giriş

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 sentyabr 2020-ci il tarixli 364 nömrəli Qərarı ilə "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası" təsdiq edilmişdir. Sözügedən Qaydaya uyğun olaraq Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (bundan sonra – Agentlik) mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar layihələrin maliyyələşdirilməsini həyata keçirir.

Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar layihələrin maliyyələşdirilməsi müsabiqələr yolu ilə müəyyən edilir və müsabiqələrdə iştirak edən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin layihələri ekspertizası edilir. Metodiki Göstəriş keçirilən müsabiqələr, müsabiqəyə təqdim edilən layihələrin ekspertizası və qalib layihələrin elan olunması prosesləri çərçivəsindən görüləcək işləri əhatə edir. Həmçinin, müsabiqəyə təqdim edilən layihələrin qiymətləndirilməsi bu Metodik göstərişlə müəyyən edilir. Qiymətləndirmə metodologiyasından istifadə etməklə layihələrin hansı sahələrin inkişaf etdirilməsinə faydalı olduğu aydınlaşacaq, o cümlədən bu prosesin necə həyata keçirilməli olduğunu müəyyən etmək üçün müvafiq layihə məlumatları əsasında keyfiyyət əsaslı qərar qəbuluna nail olmaq asanlaşacaqdır. Qiymətləndirmə metodologiyası uyğunluq, effektivlik, səmərəlilik, dayanıqlılıq və təsir meyarlarından ibarətdir.

Əsas anlayışlar

Qayda - Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 sentyabr 2020-ci il tarixli 364 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası" (bundan sonra – Qayda);

Müsabiqə - Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar layihələrin maliyyələşdirilməsi məqsədilə Agentlik tərəfindən təşkil edilən fəaliyyət;

Qiymətləndirmə - layihənin aktuallığının, icra prosesinin, səmərəliliyinin, effektivliyinin və təsirinin sistemli dəyərləndirilməsidir;

Səmərəlilik - qarşıya qoyulmuş məqsədlərə resurslardan nə dərəcədə minimum istifadə etməklə nail olunduğunu göstərir, o cümlədən layihənin icrası üçün resurslardan necə istifadə edildiyini ifadə edir;

Effektivlik (nəticə baxımından) - layihənin icrası nəticəsində istənilən dəyişikliklərə və məqsədlərə nə dərəcədə nail olunduğunu göstərir;

Nəticə- layihənin hədəf seçdiyi məsələ ilə əlaqədar vəziyyətin necə dəyişəcəyini təsvir edir (yəni nəticə nəyin dəyişəcəyinə və inkişafına xidmət edəcək, layihənin nəticəsi sayəsində və yaxud nəticədən istifadə etməklə faydalananlar necə inkişaf edəcək);

Təsir – uzunmüddətli dövrdə layihənin mikro, kiçik və orta sahibkarlığın inkişafına təsirini ifadə edir.

Müsabiqələrin təşkili

Agentlik tərəfindən müsabiqələrin keçirilməsi və layihələrin seçilməsi şəffaflıq, bərabərlik, səmərəlilik və nəticəlilik meyarlarının üstünlüyü prinsiplərinə riayət olunmaqla həyata keçirilir. Təqvim ili ərzində Agentlik tərəfindən müsabiqə maksimum 2 dəfə keçirilə bilər.

Müsabiqənin təşkili ilə əlaqədar addımlar:



Müsabiqə elanı

1) *Elanın verilmə tarixi:*

- Müsabiqəyə çıxarılacaq sahələr (təhsil, elm, tədiqqat, dəstək) və müsabiqənin keçiriləcəyi tarix müəyyən edilir.
- Müsabiqənin keçiriləcəyi barədə elan Agentliyin rəsmi internet səhifəsində, dövri mətbuatda yerləşdirilir.
- Müsabiqənin başlanılması tarixinə **ən azı 30 gün** qalmış elan verilir.
- Müsabiqə elanında yerləşdiriləcək məlumatlar "1 nömrəli əlavə" vasitəsi ilə müəyyən edilmişdir.

Sənədlərin qəbulu

2) *Müsabiqədə iştirak barədə mikro, kiçik və orta sahibkarlıq subyektlərindən müraciətlərin qəbulu:*

- Sənədlərin qəbuluna başlanacaq **tarix və saat** müəyyən edilir.

- Müsabiqədə iştirak üçün tələb olunan sənədlər "Elektron hökumət" portalı vasitəsilə elektron qaydada və ya kağız daşıyıcılarda birbaşa Agentliyə təqdim olunur.
- Müraciət Agentliyə daxil olduğu gün qeydiyyata alınır. Müraciətdə sənədlərin çatışmazlıqları müəyyən edilərsə, aradan qaldırılması barədə müraciətçiyə məlumat verilir. Müraciət tam təqdim edilərsə, təhsil, elm, tədqiqat və dəstək layihələrinin eyniləşdirmə nömrəsi təqdim edilərək vətəndaşa cavab məktubu göndərilir.
- Müsabiqənin başlanılması tarixinə **1 gün** qalmış sənədlərin qəbulu dayandırılır.
- Sənədlərin qəbulu prosesinin son tarixi və saatı müəyyən edilir.
- Sənədlərin qəbulu prosesinin vaxtları, tələb edilən sənədlər barədə məlumat elanda yerləşdirilməlidir.
- Sənədlərin qəbulu başlanacaq müddətdən əvvəl və prosesin bitmə müddətindən sonra təqdim edilmiş müraciətlər qəbul edilmir.

Müsabiqə prosesi

3) *Müsabiqənin keçirilməsi:*

- Elanda qeyd edilmiş tarixdə müsabiqə başlanılmış hesab edilir. Müsabiqə başlanılması tarixi nəzərə alınaraq keçirilmə müddəti 2 təqvim ayını əhatə etməlidir.
- Müsabiqə prosesi 4 mərhələdən ibarətdir.

1. Müsabiqəyə təqdim edilmiş müraciətlərin ekspert komissiyasına təqdim edilməsi;
2. Ekspert komissiyası tərəfindən layihələrin ilkin ekspertizanın aparılması;
3. Agentlik tərəfindən ekspertizanın ikinci mərhələsinin həyata keçirilməsi;
4. Maliyyələşdirilməsi ilə əlaqədar qərar qəbul edilmiş layihələrin açıqlanması.

Müsabiqəyə təqdim edilmiş müraciətlərin komissiyaya təqdim olunması

Sənədlərin qəbulu prosesində tam təqdim edilmiş və eyniləşdirmə nömrəsi almış layihələr müsabiqədə iştirak edir. Təqdim edilmiş layihələr Agentlik tərəfindən təhsil, elm, tədqiqat və dəstək sahələri üzrə qruplaşdırılır. Layihələrin həcmi nəzərə alınaraq qiymətləndirmə meyarları və qısa məlumatları özündə əks etdirən arayış forması (2 nömrəli əlavə) hazırlanır. Arayış forması və qruplaşdırılan layihələr ilkin ekspertiza üçün müsabiqənin başlandığı gün ekspert komissiyasına (operativliyi təmin etmək üçün elektron poçt və ya birbaşa) təqdim edilir.

Ekspert komissiyası tərəfindən qiymətləndirmə prosesi

Ekspert komissiyası tərəfindən qiymətləndirmə "3 nömrəli əlavə"-də müəyyən edilmiş meyarlar əsasında vahid cədvəl formasına uyğun həyata keçirilir. Ekspert Komissiyasının hər bir üzvü layihələrə baxdıqdan sonra hər bir layihəni 14 meyar üzrə 5 ballıq qiymət şkalası üzərindən qiymətləndirir və qiymətləndirmənin əsası barədə şərh bölməsinə qeyd edə bilər.

1	2	3	4	5
qeyri-qənaətbəxş	*qənaətbəxş*	*kafi*	*yaxşı*	*əla*

Aşağıdakı hallarda ekspert komissiyasının üzvləri tərəfindən qiymətləndirilmir və şərh yerinə əsaslandırma qeyd edilir:

- Layihənin büdcəsi Qaydada müəyyən edilmiş həddən çox olarsa;
- Layihənin icra müddəti Qaydada müəyyən edilmiş müddəti əhatə etmirsə;
- Layihə müəyyən edilmiş istiqamətlərə (təhsil, elm, tədqiqat və dəstək) uyğun gəlmirsə;
- Müraciətçi mikro, kiçik və orta sahibkarlıq subyekti deyilsə.

Ekspert komissiyasının üzvü tərəfindən layihənin qiymətləndirməsinin hesablanma forması

Ekspert komissiyasının üzvü tərəfindən hər bir layihəyə "3 nömrəli əlavə"-də müəyyən edilmiş 14 meyar üzrə verilən qiymətlər cəmlənir. Toplam alınan rəqəm üzv tərəfindən həmin layihə üzrə qiymətləndirilən meyarların sayına bölünür. Nəticədə ekspert komissiyasının bir üzvü tərəfindən layihəyə verilən qiymət müəyyən edilir.

$$N = \frac{C}{M}$$

N – bir layihə üzrə qiymətləndirmənin nəticəsi;
C – bir layihə üzrə qiymətlərin cəmi;
M – 14 meyar üzrə qiymətləndirilən meyarların sayı.

Hər bir layihə üzrə qiymətləndirmənin nəticəsi tam olmadıqda həmin rəqəm yuvarlaqlaşdırılır.

Nümunə:

Ekspert komissiyasının "A" (şərti) üzvü "B" layihəsinə baxaraq qiymətləndirmişdir.

	Meyarlar	1-5 qiymət şkalası
LAYİHƏ "B"	Meyar 1	2
	Meyar 2	3
	Meyar 3	4
	Meyar 4	5
	Meyar 5	3
	Meyar 6	2

	Meyar 7	*1*
	Meyar 8	5
	Meyar 9	4
	Meyar 10	4
	Meyar 11	3
	Meyar 12	1
	Meyar 13	2
	Meyar 14	3
	14 meyar qiymətləndirilmişdir	Qiymətin cəmi: **42**

$$\frac{42}{14} = 3$$

C=42, M=14, N = 3. "A" üzvü tərəfindən "B" layihəsinə ümumən "3" qiymət verilmişdir.

Ekspert komissiyasının hər bir üzvü tərəfindən layihə qiymətləndirilir və qeyd olunan hesablama formasına uyğun olaraq yekun qiymət (N) müəyyən edilir. Bundan sonra sahibkarın müraciəti ilə təqdim edilmiş layihənin yekun qiymətləndirilməsi həyata keçirilir. Ekspert komissiyasının hər bir üzvü tərəfindən təqdim edilən layihənin yekun qiymətləri toplanaraq qiymətləndirmədə iştirak etmiş üzvlərin sayına bölünür. Alınan rəqəm sahibkarın layihəsinin yekun qiymətləndirmə nəticəsi olur.

Yekun nəticə tam olmadıqda həmin rəqəm yuvarlaqlaşdırılır.

$N_1+N_2+N_3+N_4+N_5+N_6+N_7=YC$

$$YN = \frac{YC}{ÜS}$$

YN – Yekun Nəticə
YC – Yekun Cəm
ÜS – Üzvlərin Sayı

Nümunə:

"B" layihəsinin qiymətləndirilməsinin yekun nəticəsi.

	Ekspert komissiyasının üzvləri	Yekun qiymətləndirmə
"B" LAYİHƏSİ	N_1	2.3
	N_2	3
	N_3	3.4
	N_4	1
	N_5	2.8
	N_6	3.1
	N_7	2.9
	7 üzv qiymətləndirmədə iştirak etmişdi. (ÜS)	Qiymətin cəmi: 18.5 (YC)

$$\frac{18.5}{7} = 2.6$$

YC=18.5, ÜS=7, YN=2.6. Ekspert komissiyasının 7 üzvü tərəfindən "B" layihəsinin qiymətləndirilməsinin nəticəsi 2.6 olmuşdur.

Hər bir layihə yuxarıda qeyd olunan hesablamaya uyğun olaraq hesablanır və hər bir layihənin qiymətləndirmədə yığdığı nəticə müəyyən edilir.

Meyarlar üzrə göstəricilərin və şərhlərin ümumiləşdirilməsi

Hazırlanan layihənin qiymətləndirilməsi zamanı sahibkar tərəfindən zəif və güclü tərəflərin müəyyən edilməsi məqsədilə ekspert komissiyasının üzvləri tərəfindən 14 meyar üzrə ümumiləşdirilmiş məlumat hazırlanır. Sözügedən məlumatda 14 meyar üzrə üzvlərin qiymətləndirdiyi cəm rəqəm və qiymətləndirmənin əsası olan şərhlər qeyd olunur. Sahibkarın müraciətində meyarların nəticəsini müəyyən etmək üçün bir meyar üzrə üzvlər tərəfindən verilmiş qiymətlər toplanılır və həmin rəqəm qiymətləndirmədə iştirak etmiş üzvlərin sayına bölünür.

$$MN = \frac{MC}{ÜS}$$

MN – Meyarların nəticəsi
MC – Meyarların cəmi
ÜS – Üzvlərin Sayı

Layihələrin yekun nəticəsi, meyarlar üzrə göstəricilər və şərhlərin ümumiləşdirilməsi barədə məlumatı özündə əks etdirən arayış hazırlanır. İlkin ekspertizanın nəticəsi olan sözügedən arayış komissiyanın rəhbəri tərəfindən Agentliyə təqdim olunur.

Agentlik tərəfindən ekspertizanın ikinci mərhələsinin həyata keçirilməsi

Ekspert Komissiyası tərəfindən təqdim olunmuş arayışa Agentlikdə aidiyyəti üzrə baxılır. Arayışda müəyyən olunan məsələlər nəzərə alınmaqla təqdim olunmuş layihələr müzakirə edilir və aşağıda meyarlar üzrə layihələrə yenidən baxılır.

1) İctimai əhəmiyyəti;
2) Səmərəli və real olması;
3) Davamlılıq amili;
4) Layihələrin büdcəsinin uyğunluğu.

Sözügedən meyarlar üzrə layihələrə baxıldıqdan sonra ekspert komissiyası tərəfindən qiymətləndirilmiş və yüksək nəticə əldə etmiş layihələr büdcələri nəzərə alınaraq Agentlik tərəfindən maliyyələşməsi imkanlarına baxılır.

Layihələrin büdcəsi nəzərə alınaraq maliyyələşməsi üçün layihələri say həddi müəyyən edilir. Agentlik tərəfindən ən yüksək nəticə əldə etmiş layihədən başlayaraq ardıcıllıqla müəyyən edilmiş saya uyğun olaraq layihələr seçilir. İmtinaya əsas olan səbəb müəyyən edildikdə o zaman həmin layihədən imtina barədə əsaslandırılmış cavab məktubu sahibkara təqdim edilir.

Bundan sonra Agentlik tərəfindən layihələrin maliyyələşdirilməsi sayına uyğun olaraq ardıcıllıqla növbəti yüksək nəticə göstərmiş layihə seçilir və yuxarıda qeyd olunan proses üzrə yoxlanılır.

Agentlik tərəfindən müəyyən edilmiş saya uyğun olaraq yüksək nəticə əldə etmiş layihələr müəyyən edilmiş prosesləri keçdikdən sonra sözügedən layihələr ekspertizası mərhələsindən uğurla keçmiş layihələr sayılır.

Maliyyələşdirilməsi ilə əlaqədar qərar qəbul edilmiş layihələrin açıqlanması

Ekspertiza mərhələsindən uğurla keçmiş layihələrin Agentlik tərəfindən maliyyələşdirilməsi barədə qərar qəbul edilir.

Layihələrin maliyyələşdirilməsi barədə qərarda aşağıda qeyd olunmuş məlumatlar əks olunmalıdır:

- layihəni təqdim etmiş şəxs haqqında məlumatlar (Hüquqi, fiziki şəxsin adı, VÖEN-i);
- layihənin adı;
- layihənin məbləği;
- icra müddəti.

Maliyyələşdirilməsinə qərar verilmiş layihələr barədə məlumat Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir və bu barədə kütləvi informasiya vasitələri ilə ictimaiyyətə məlumat verilir.

Maliyyələşdirilməsindən imtina edilmiş müraciətçilərə meyarlar üzrə qiymətləndirmənin nəticəsidə əlavə olunmaqla məktubla cavab verilir.

Maliyyələşdirilməsinə qərar verilmiş layihələr müəyyən edildikdən və bu barədə ictimaiyyətə açıqlandıqdan sonra müsabiqə bitmiş hesab olunur.

Maliyyələşdirilməsinə qərar verilmiş layihələri təqdim etmiş sahibkarlarla Agentlik arasında 3 nüsxədə müqavilə bağlanılır. Müqavilə bağlanıldıqdan sonra Agentlik "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"nın 1.6-cı bəndinə uyğun işlər həyata keçirir.

Layihələrin qeydiyyatı ilə əlaqədar müvafiq bildiriş alındıqdan sonra müqavilədə müəyyən edilmiş məbləğin 70 faizi sahibkarın hesabına köçürülür.

Agentlik layihənin icrasına başlanıldığı tarixdən icra monitorinqini həyata keçirir. Layihənin icra müddəti nəzərə alınaraq 3 hissədə monitorinq həyata keçirilir.

- İlkin;
- Aralıq;
- Yekun.

Monitorinqin keçirilmə ardıcıllığına uyğun olaraq icra prosesi barədə hesabat sahibkar tərəfindən Agentliyə təqdim edilir.

Monitorinq prosesi 2 (iki) mərhələdən ibarətdir:

1. Agentliyin maliyyələşdirdiyi qalib layihələrin icrasına nəzarət, monitorinqlərin keçirilməsi və qiymətləndirmənin aparılması;
2. Agentliyin maliyyələşdirdiyi qalib layihələrin icrası ilə bağlı ödənilən vəsaitin təyinatı üzrə istifadə edilməsinə nəzarət.

Monitorinqin birinci mərhələsinin icrası Agentliyin icraya nəzarət funksiyasını həyata keçirən struktur bölməsinə həvalə olunmaqla İdarə Heyətinin sədrinin təsdiq etdiyi tərkibdə olan monitorinq qrupu tərəfindən aparılır.

Monitorinqin ikinci mərhələsi Agentlikdə maliyyə-mühasibatlıq sahəsi üzrə nəzarət funksiyasını həyata keçirən struktur bölmə tərəfindən həyata keçirilir.

Monitorinqin 1-ci mərhələsində layihə üzrə təqdim olunmuş hesabatlar əsasında bu Metodik göstərişlə müəyyən edilmiş metodologiyaya əsasən monitorinq qrupu tərəfindən qiymətləndirmə aparılır. Monitorinq qrupu hər bir görülməli işləri və təqdim olunmuş müvafiq təsdiqedici sənədləri nəzərdən keçirərək, layihələrin icra vəziyyətinin monitorinqi çərçivəsində aşağıdakı meyarlar üzrə əsaslandırmaqla, ilkin qiymətləndirmə aparır:

1. Layihə icra edilmişdir;
2. Layihə qismən icra edilmişdir;
3. Layihənin icrası baş tutmamışdır;

İcra vəziyyətinin monitorinqi çərçivəsində əldə olunan məlumatlar əsasında tədbirlərin qiymətləndirilməsi həyata keçirilir.

Məlumatların əldə edilməsi, yoxlanılması, yerində baxış tədbirlərinin təşkili işləri yekunlaşdıqdan sonra, görülməli olan işlərin icra vəziyyətinin monitorinqi çərçivəsində ilkin qiymətləndirmədə müvafiq dəqiqləşdirmələr aparılır və hər bir tədbir, yekun qiymətləndirmə nəticələrinə uyğun olaraq, müvafiq balla qiymətləndirilir:

1. icra edilmiş iş(lər) – 1 bal;
2. qismən icra edilmiş iş(lər) – 0,5 bal;
3. icrası baş tutmayan iş(lər) – 0 bal;

Layihənin icra vəziyyətinin qiymətləndirilməsi aşağıdakı qaydada həyata keçirilir:

1. Layihənin icra vəziyyətinə əsasən "icra edilmişdir", "qismən icra edilmişdir" və "icrası baş tutmamışdır" kimi qiymətləndirilmiş tədbirlərin sayının ümumi tədbirlərin sayına nisbəti əsasında xüsusi çəki müəyyən edilir;

2. Layihələrin ümumi icra vəziyyəti aşağıdakı düsturla qiymətləndirilir:

$$(İE+Qİ+İB)/NT*100=ƏİF$$

Burada:

İE – icra edilmiş iş(lər) üzrə ümumi bal;

Qİ – qismən icra edilmiş iş(lər) üzrə ümumi bal;

İB – icrası baş tutmayan iş(lər) üzrə ümumi bal;

NT – layihədə yerinə yetirilməsi nəzərdə tutulan iş(lər)in sayı;

ƏİF – əsas icra faizi.

Agentlik tərəfindən maliyyələşdirilən və icrası yekunlaşmış qrant layihəsinin monitorinqi ilə bağlı yekun olaraq 1-ci mərhələnin nəticələrini əks etdirən arayış tərtib edilir. Arayışda layihədə nəzərdə tutulmuş işlərin faktiki icra vəziyyəti qeyd edilir. Ümumi icra vəziyyətinə uyğun olaraq əldə edilmiş nəticələr aşağıdakı qaydada qiymətləndirilir:

- 0 – 50 faiz aralığındakı göstərici – "qeyri-qənaətbəxş";
- 51 – 70 faiz aralığındakı göstərici – "qənaətbəxş";
- 71– 85 faiz aralığındakı göstərici – "yaxşı";
- 86 –100 faiz aralığındakı göstərici – "əla".

Monitorinqin 1-ci mərhələsinin qiymətləndirmə nəticələri monitorinqin 2-ci mərhələsinə keçid olaraq layihə üzrə xərclənmiş vəsaitin təyinata uyğunluğunu təsbit etmək üçün aidiyyəti üzrə yönləndirilir. Bundan sonra layihə icra edilmiş hesab edildiyi təqdirdə resipiyentin hesabına layihə üzrə müqavilədə müəyyən edilmiş məbləğin qalan 30 faizi köçürülür.

Müsabiqənin keçirilməsi ilə əlaqədar müddətin qısa qrafiki



Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin "14" noyabr 2022-ci il tarixli F-31-K013 nömrəli əmri ilə təsdiq edilmiş Metodiki Göstərişə 1 nömrəli əlavə

Müsabiqə elanında yerləşdiriləcək məlumatlar

1) **Müsabiqənin nömrəsi;**

Nümunə:

Təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi sahəsində 4 müsabiqə.

2) **Müsabiqənin başlanılması və bitməsi tarixi (gün, ay, il, saat);**

Nümunə:

Müsabiqə başlanılacaq: 12.02.2022-ci il saat 12:00-da.

Müsabiqə bitəcək: 12.04.2022-ci il saat 18:00-da.

3) **Müsabiqənin keçirildiyi sahələr (təhsil, elm, tədqiqat, dəstək)**

Nümunə:

Təhsil, elm, tədqiqat və dəstək sahələri üzrə müsabiqə elan olunur.

4) **Müsabiqəni təşkil edən qurumun adı, ünvanı və əlaqə vasitələri barədə məlumatlar;**

Nümunə:

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi
Ünvan: AZ1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr., 134
Tel: (+994 12) 404 04 01
Faks: (+994 12) 404 04 03
Email: info@smb.gov.az

5) **Müsabiqədə iştirak üçün müraciət olunacaq və müsabiqənin keçiriləcəyi yerin ünvanı;**

Nümunə:

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin inzibati binası
Ünvan: AZ1069, Bakı şəhəri, Mustafa Kamal Atatürk pr., 134
Email: info@smb.gov.az

6) **müsabiqədə iştirak barədə müraciətin müddəti və son tarixi.**

Nümunə:
Müsabiqədə iştirak üçün sənədlərin qəbulu: 12.01.2021-ci il saat 09:00-da
Müsbiqədə iştirak üçün sənədlərin qəbulunun son tarixi: 11.02.2021-ci il saat 18:00

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin "14" noyabr 2022-ci il tarixli F-31-KOB nömrəli əmri ilə təsdiq edilmiş Metodiki Göstərişə 2 nömrəli əlavə

Arayış forması

S/S	Məlumat	
1	Sahibkarın adı:	Fərdi, hüquqi şəxs
2	Sahibkarın meyarı:	Mikro, kiçik, orta
3	Layihənin adı:	"----------"
4	Layihənin sahəsi:	Təhsil, elm, tədqiqat, dəstək
5	Layihənin məqsədi:	"----------"
6	Layihənin müddəti:	3-12 ay
7	Layihənin keçiriləcəyi ərazi:	"----------"
8	Layihənin büdcəsi:	20000 manatadək
9	Əlavə qeyd:	
	Qiymətləndirmə meyarları	
1	layihənin məqsəd və vəzifələrinin aydınlığı	1-5 bal - Şərh
2	layihənin mövzusunun aktuallığı	1-5 bal - Şərh
3	layihənin innovativliyi	1-5 bal - Şərh
4	layihədə mikro, kiçik və orta sahibkarlığın ölkənin sosial-iqtisadi inkişaf tendensiyalarına uyğun olması	1-5 bal - Şərh
5	layihənin mikro, kiçik və orta sahibkarlığın inkişafına təsiri	1-5 bal - Şərh
6	müsabiqəyə təqdim edilmiş layihənin və ona əlavə olunmuş sənədlərin "Qayda"ya uyğunluğu	1-5 bal - Şərh
7	layihənin dəqiq ifadə edilmiş və əsaslandırılmış ideyası	1-5 bal - Şərh
8	praktiki məqsədlər üçün tətbiq imkanları	1-5 bal - Şərh
9	layihənin iki və ya daha çox şəxs tərəfindən təqdim edilməsi	1-5 bal - Şərh
10	layihənin dayanıqlı olaraq inkişaf etdirilməsi imkanları və davamlılığı	1-5 bal - Şərh
11	layihənin büdcəsinin layihənin həyata keçirilməsi üçün tələb olunan vəsaitə uyğun olaraq hazırlanması	1-5 bal - Şərh
12	layihənin icra vəziyyətinin qiymətləndirilməsi üçün təklif olunan monitorinq mexanizmlərinin mükəmməllik səviyyəsi	1-5 bal - Şərh
13	layihənin həyata keçirilməsi üçün tələb olunan müvafiq maddi-texniki bazanın mövcudluğu	1-5 bal - Şərh
14	layihə icraçısının müvafiq sahədə təcrübəsi	1-5 bal - Şərh
	Ümumi şərh	"----"
	Nəticə:	Yekun nəticə - 14 meyardan verilən qiymət

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin "14" noyabr 2022-ci il tarixli F-31-KOB nömrəli əmri ilə təsdiq edilmiş Metodiki Göstərişə 3 nömrəli əlavə

Qiymətləndirmə Meyarları

S/s	Meyarlar	Şərh
1	layihənin məqsəd və vəzifələrinin aydınlığı	Layihənin məqsədlərinin aydın, ölçülə bilən və nəticəyönümlü olması; Layihənin ümumi və xüsusi məqsədlərinin dəqiq göstərilməsi; Layihənin ümumi məqsədinin ümumi inkişafa, baxışa və nəticələrə uyğunluğu; Layihənin xüsusi məqsədinin konkret olaraq layihənin həll etmək istədiyi məsələlərə uyğunluğu; Qarşıya qoyulmuş vəzifələrin dəqiq izahı və layihənin məqsədlərinə uyğunluğu; Layihənin vəzifələrinin yetirilməsi müddətini və mərhələlərini göstərilməklə həyata keçiriləcək tədbirlər.
2	layihənin mövzusunun aktuallığı	Cəmiyyətdə dəyişikliyə nail olmağı hədəf götürən hər hansı layihə təklifi ilk növbədə bu cür dəyişikliyə zərurət olub-olmadığını müəyyənləşdirməlidir. Zərurət müəyyən edilmiş sahədə aparılan tədqiqat əsasında müəyyən edilmiş olmalıdır. Müraciət edən istifadə etdiyi mənbələrə istinad etməli və layihə təklifi sənədində həmin mənbələrdən sitatlar gətirməlidir. Həmçinin, aşağıdakı tələblərə cavab verməlidir: Layihənin əsas mahiyyətini və nədən bəhs etdiyini qısa ifadə etməklə məsələnin aktuallığını əsaslandırılması; Həll olunacaq məsələnin mühümlüyünün və ehtiyacların necə müəyyən edildiyinin aydın olması; Təsvir edilən məsələ ilə bağlı nümunələrin olmasına qiymətləndirmə zamanı üstünlüyün verilməsi; Layihənin icra ediləcəyi ərazini (ölkə, şəhər, rayon, qəsəbə və kənd), habelə layihənin bu ərazidə icra olunmasının əhəmiyyətinin nəzərə alınması. Layihənin benefisiar qrupunun (faydalananların kateqoriyası, sayı, yaş qrupu və s. xüsusiyyətlərini), necə müəyyənləşdirdiyi, həmin benefisiar qrupunu nə üçün seçildiyinin əsaslandırılması.
3	layihənin innovativliyi	Layihənin icrası nəticəsində təqdim ediləcək məhsulun və ya xidmətin innovativliyinin, unikallığının, rəqabətədavamlığının aydın xarakterizə edilməsi; Layihə məhsulunun elmi-texniki yeniliyi və istehsalatda istifadə (tətbiq) oluna bilməsi, eləcə də kommersiya baxımından realizə edilə bilməsi.

4	layihədə mikro, kiçik və orta sahibkarlığın ölkənin sosial-iqtisadi inkişaf tendensiyalarına uyğun olması	Ölkədə və layihənin keçiriləcəyi ərazidə layihə mövzusuna dair vəziyyətin təsviri, layihə mövzusuna aid spesifik məsələlərin yerli regionunun və ölkənin sosial-iqtisadi inkişaf ehtiyaclarına və prioritetlərinə uyğunluğu.
5	layihənin mikro, kiçik və orta sahibkarlığın inkişafına təsiri	Layihənin icrası ilə əlaqədar əldə olunan nəticənin (lərin) ölkədə mikro, kiçik və orta sahibkarlığın inkışafına təsiri; layihənin reallaşdırılması ilə bağlı vəziyyətin necə dəyişəcəyinin təsviri, layihə məhsulunun hədəf qrupuna verəcəyi fayda; Layihə fəaliyyətlərinin və imkanlarının maraqlı tərəflərin ehtiyacları və gözləntilərinə cavab verməsi.
6	müsabiqəyə təqdim edilmiş layihənin və ona əlavə olunmuş sənədlərin "Qayda"ya uyğunluğu	Layihənin adı onun mahiyyətinə uyğun olaraq aydın və dəqiq olması, habelə elan edilmiş müsabiqə sahələrindən hansına aid olduğu göstərilməsi; Layihənin icra müddətinin dəqiq göstərilməsi; Layihənin müsabiqə şərtlərinə, müsabiqə istiqamətlərinə və sahələrinə, müəyyən edilmiş meyarlara uyğunluğu; Müvafiq ərizə formasının, layihənin büdcəsinin, KOB subyekti olan fiziki şəxsin, yaxud hüquqi şəxsin nümayəndəsinin şəxsiyyətini və səlahiyyətlərini təsdiq edən sənədlərin surətləri, müraciət edən hüquqi şəxs barədə hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının və nizamnaməsinin surətləri.
7	layihənin dəqiq ifadə edilmiş və əsaslandırılmış ideyası	Layihənin qarşıya qoyduğu məsələnin səbəb-nəticə əlaqələrinin məntiqə uyğunluğu: – ideya (məhsul, mal, xidmət) konkret olaraq nədən ibarətdir? – ideyanın yeniliyi nədən ibarətdir? – layihə məhsulunun istifadəçisi (alıcısı) kim olacaqdır? – ideyanı həyata keçirməyə başlamaq üçün nə (hansı ehtiyatlar) lazımdır?
8	praktiki məqsədlər üçün tətbiq imkanları	Layihənin icrası ilə əldə edilən nəticənin(lərin) bu və ya digər sahədə tətbiqinin əsaslı və ətraflı izahı
9	layihənin iki və ya daha çox şəxs tərəfindən təqdim edilməsi	Layihənin iki və ya daha çox hüquqi və ya fiziki şəxs tərəfindən təqdim edilməsi, həmçinin müvafiq layihə komandası barədə məlumatların göstərilməsi
10	layihənin dayanıqlı olaraq inkişaf etdirilməsi imkanları və davamlılığı	Layihənin icrasından əldə ediləcək nəticələrin və onların dayanıqlı təsir imkanlarının aydın izah edilməsi, layihə bitdikdən sonra onun davam etdirilməsi imkanlarının təsviri Layihənin nəticələrinin miqyasını genişləndirmək mümkün olmalıdır. Təklif olunan layihənin dayanıqlı olduğu göstərilməlidir. Buna misal olaraq üçüncü şəxslər və ya benefisiarlar tərəfindən birgə maliyyələşdirməni və natura (mal və xidmətlər) ilə yardımları, fəaliyyətlərin ətraf mühitə təsirinin idarə olunması mexanizmini, təklif

		olunan layihə çərçivəsində qərarların qəbul olunması prosesində benefisiarların fəal iştirakını nəzərdə tutan sxemin hazırlanmasını göstərmək olar. Təklif olunan hər bir layihənin kifayət qədər aydın və ətraflı şəkildə müəyyən edilmiş çıxış davamlılıq strategiyası olmalıdır.
11	layihənin büdcəsinin layihənin həyata keçirilməsi üçün tələb olunan vəsaitə uyğun olaraq hazırlanması	Layihədə qeyd edilən vəzifələrin icrasına uyğun real büdcənin hazırlanması və təqdim edilməsi; Təklif olunan layihə sənədlərində hər bir bənd üzrə bütün tədbirlər və əlaqədar xərclər, onların təsviri, izahı, əsaslandırılması və tələb olunduqda xərclərin detallı açıqlanmasının qeyd olunması; Layihə büdcəsində bütün xərclərin göstərilməsi; Mümkün minimal xərclə maksimum nəticələrin ən yüksək keyfiyyətdə əldə olunmasının təmin edilməsi; Layihədə təklif olunan işlərin həcminin nəzərdə tutulan məqsəd və hədəflərin əldə olunmasına münasibətdə qiymətləndirilməsi üzrə aparılması; Tələb olunan xidmətlərin və materialların qiymətləri zaman və məkana uyğun bazar qiymətləri ilə müqayisə edilməsi; Layihə büdcəsinin müəyyən edilmiş həddi keçməməsi.
12	layihənin icra vəziyyətinin qiymətləndirilməsi üçün təklif olunan monitorinq mexanizmlərinin mükəmməllik səviyyəsi	Layihənin monitorinqinin aparılmasının üsul və vasitələrini, layihənin nəticələrinin qiymətləndirmə meyarlarını olması, layihə vəzifələrinin və tədbirlərin icra vəziyyətinin qiymətləndirilməsi üçün istifadə edilən göstəricilər dəqiq göstərilməsi; Təklif olunan layihədə gözlənilən nəticələrin layihənin həyata keçirildiyi müddət ərzində necə monitorinq olunacağı və izləniləcəyi aydın şəkildə qeyd olunması; İddiaçılar layihə üzrə işlərin və hədəflərin əldə olunmasının hərtərəfli, çoxsəviyyəli monitorinqini aparmaq üçün lazımi bilik, bacarıq və təcrübəyə malik olduqlarına dair təsdiqedici sənədlərin təqdim edilməsi.
13	layihənin həyata keçirilməsi üçün tələb olunan müvafiq maddi-texniki bazanın mövcudluğu	Layihənin icrasına sərf ediləcək resursların (müvafiq ofis, kompyüter və avadanlıqlar və s.) müəyyən edilmiş layihə məqsədlərinə nail olmaq üçün real olması
14	layihə icraçısının müvafiq sahədə təcrübəsi	Layihə icraçısın layihənin aid olduğu məsələ ilə əlaqədar əvvəlki iş təcrübəsi, əvvəllər icra olunmuş layihə və proqramlarda layihə idarəetmə təcrübəsi. Layihələrin həyata keçirilməsi üçün təklif olunan komanda layihələrin idarə olunması, maliyyə işlərinin aparılması və aidiyyəti sahə ilə əlaqədar təcrübəyə malik olması. Konkret sahə üzrə ən azı bir ekspert nəzərdə tutulan layihənin məzmununa aid müvafiq təcrübəsi olan ekspert/məsləhətçi qismində

		təqdim olunması qiymətləndirmə zamanı üstünlük verilən məqam hesab olunur.